*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 oktyabr 2018-ci il    № 81 (2297)    Qiyməti 25 qəpik


# Hava hücumundan müdafiə bölmələri döyüş atışlarını icra edib



Bu gün Azərbaycan Ordusu müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimlərə üstünlük verməklə, döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Təlimlər zamanı qoşunların yüksək döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, onların yenidən qruplaşması üzrə tədbirlərin keçirilməsi, həmçinin döyüş və maddi-texniki təminat məsələləri də yoxlanılır. Ordu quruculuğunu inkişaf etdirmək, döyüş hazırlığını artırmaq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun qarşısına qoyduğu prioritet məsələlərdəndir.

Növbəti təlimlər Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Hava Hücumundan Müdafiə Qoşunlarının bölmələrində baş tutub. Belə ki, Hava hücumundan müdafiə bölmələrinin taktiki təlimlərində "OSA" zenit-raket komplekslərindən döyüş atışları icra edilib. Eyni zamanda təlimlərdə Hava hücumundan müdafiə bölmələri "İQLA" daşınan zenit-raket komplekslərindən də döyüş atışları icra edib.

Döyüş şəraitinə uyğun vəziyyətdə keçirilən təlimlərdə artilleriya bölmələrinin marşı icra etməsi, cəmləşmə rayonlarına çıxarılması, qərarların qəbul olunması, gizliliyə riayət etməklə atəş və start mövqelərinin tutulması, döyüşün gedişində yerdəyişmə və digər tapşırıqlar yerinə yetirilib.

Təlimlərdə praktiki döyüş atışlarının dəqiqliyini və intensivliyini təmin etmək məqsədilə müasir avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə edilib.

Şəxsi heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**"Azərbaycan Ordusu"**



Vətən sevgisiylə döyünən ürək

2-ci səhifədə




“Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!”

4-cü səhifədə



Hərbi hissədə ağacəkmə aksiyası

7-ci səhifədə



“Qanbağışlama” aksiyası keçirildi

8-ci səhifədə

# Müdafiə nazirinin Çexiyaya rəsmi səfəri



*Çex Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov burada keçirilən "Beynəlxalq Gələcək Qüvvələr Sərgisi - 2018"də iştirak edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, oktyabrın 17-də sərginin rəsmi açılış mərasimindən sonra general-polkovnik Zakir Həsənovun çexiyalı həmkarı Lubomir Metnar ilə ikitərəfli görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Çexiya arasında hərbi əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri, eləcə də regiondakı təhlükəsizlik məsələləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Çex Respublikasına səfəri çərçivəsində bu ölkənin Müdafiə, Daxili İşlər, Xarici İşlər nazirlikləri, Silahlı Qüvvələrin Baş Qərargahı, NATO qərargahı, Avropa Müdafiə Agentliyi və bir sıra digər milli və beynəlxalq təşkilatların dəstəyi ilə keçirilən "Beynəlxalq Gələcək Qüvvələr Sərgisi - 2018"də iştirak edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bu tədbir milli və qlobal təhlükəsizlik hədəflərinin təqdimi və təşviqi, eyni zamanda müdafiə və təhlükəsizlik sahələri üzrə məlumat mübadiləsi məqsədilə keçirilən beynəlxalq səviyyədə tanınmış nüfuzlu bir platformadır.

Sərgidə 60-dan çox ölkənin 1200-dək şirkəti iştirak edir. Azərbaycan nümayəndə heyəti həmin sərgidə iştirak edən xarici ölkələrin müdafiə şirkətlərinin istehsal etdiyi məhsullar ilə tanış olaraq onların təyinatları barədə ətraflı məlumatlandırılıb.

Səfər çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov bir sıra müdafiə şirkətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər də keçirib.



* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Çex Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin iri sənaye holdinqi - "Czechoslovak Group"un rəhbərliyi ilə görüşüb.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, şirkətlə gələcək əməkdaşlığın perspektivləri nəzərdən keçirilib və holdinqə daxil olan müdafiə sənayesi şirkətlərinin fəaliyyəti, istehsal etdikləri məhsullar barədə brifinqlər təqdim edilib.

*Gənc zabitlərimiz*

# Vətən sevgisiylə döyünən ürək

Uşaqlıqdan hərbçi olmağı arzulayırdı. Köksünə sığmayan, yuxularını ərşə çəkən bu arzusunu ata-anasına açıqladı. Fazil kişi oğlunun qərarından çox razı qaldı. Axı özü də Qarabağ döyüşlərinin iştirakçısı idi. Övladının işğalda olan torpaqlarımızı azad görmək arzusu, bu amal uğrunda döyüşmək istəyi ilə fərəhləndi. "Sən sadə bir kəndli ailəsində dünyaya göz açan mərd övladsan. Qərarın məni olduqca sevindirdi. Seçdiyin yol çətin və şərəflidir. Bu yolda daha dözümlü, qərarlı və bacarıqlı olmalısan. Tutduğun yolda Allah sənə yar olsun". Anası isə ağlayıb "sənin dost-tanışın həkim, müəllim olmağı arzulayıb rahatlıq axtarır, sənsə özünü odun, alovun içinə atırsan" deyirdi. Axı orta məktəbdə oxuyan Ayaz, Zəminə ananın gözündə hələ də körpəydi.

Çox qərarlıydı, hərbçi olmaq istəyirdi. Onun üçün Vətən hər şeydən önəmliydi. Doğma torpaq uğrunda canından keçməyə hazır idi. Xəyallarının arxasınca gedən Ayaz sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verir. İmtahanları uğurla başa vurur. Məktəbli Ayaz kursant adını qazanır. Hamı kimi hərbi forma geyinməyin sevincini yaşayır. İlk dəfə onu hərbi mundirdə görən atası qürurlanır, Zəminə ananın gözündəki yaş bu dəfə sevinc, fərəh göz yaşına dönür. Çünki Vətənə bağlı övlad böyütmüşdülər. Gözlərinin ağı-qarası övladlarına xeyir-dua verib, Allaha əmanət edərək tutduğu yolda uğurlar arzuladılar.

- Sənin kimi övlada sahib olduğum üçün Allahıma şükür edirəm, - Fazil kişi dedi. - Müharibənin qan-qadasını görmüşəm, anan da o illər yolumu həsrətlə gözləyib. Bu səbəbdən hərbçi olmağını istəmirdi, amma qəlbən sevinirdi. Sənin kimi igid oğul böyütdüyümüz üçün qürur hissi keçirdik.

Ayaz kursant olduğu dövrdə səmimiyyəti, mehribanlığı və hərb sənətinə bağlılığı ilə seçilir, müəllim və kursant heyətinin rəğbətini qazanır. İllər bir-birini sürətlə əvəzləyir və o, 2015-ci ildə leytenant hərbi rütbəsi ilə məzun olur.

Baş leytenant Ayaz Cəfərlinin ilk xidmət yeri ön xətt hərbi hissələrindən biri olur. Zabit ailəsiylə vidalaşıb yola düşdüyü anı və atası ilə söhbətini belə xatırlayır:



- Hə igid, demək gedirsən?
- Bəli atacan, işğaldan azad edilməli torpaqlarımız var.
- Biz səni Vətən üçün böyütmüşük. Nə sən, nə də Vətən darda qalmasın.
- Gözün arxada qalmasın. Qarabağı azad edənlər sırasında olacam.
- Xudahafiz oğlum...
- Xudahafiz ata...

Valideynlərin xeyir-duası ilə Ayaz hərbi xidmətə yollanır. Düşmənlə üz-üzə səngərlərdə xidmət aparır. Dəfələrlə atəşkəs pozulanda, düşməni cavab atəşi ilə susdurmağa nail olur. Gecələr gündüzləri, dəqiqələr saatları, günlər ayları qova-qova zaman ötür. Ayaz təcrübəli zabit kimi formalaşır. O, anasının övlad toyu görmək arzusu, atasının nəvə oynatmaq istəyindən agah idi. Lakin onun üçün həyatdakı ən böyük sevgi Vətən sevgisi idi.

Anası bəzən zəng edər, yuxularından danışar, ehtiyatlı olmasını istəyərdi. Hər dəfə Ayaz zarafata salıb ana ürəyini rahatlatmağa çalışardı. 2016-cı ilin martın son günlərində Zəminə ana narahatlıq içində yuxudan qalxır. Gördüyü yuxunu əvvəlcə suya, sonra zəng edərək Ayaza danışır.

"Gördüm ki, qaranlıq bir gecədi, güllə səsləri gəlir. Əvvəlcə təlaşa düşdüm. Arxanca gəlib dəfələrlə Ayaz deyə səslədim. Dönüb baxırsan, "ana, Vətən məni gözləyir, tələsirəm" deyib yoluna davam edirsən. Nə qədər çağırsam da, qayıtmırsan. Sonra günəşin qürubunda uca bir dağın zirvəsinə üçrəngli bayrağımızı sancdığını görürəm".

Anasının son cümləsi səhər mehi kimi bütün ruhuna yayılır Ayazın. Üzünə gülüş, gözlərinə sevinc qonur.

- Görürsən ana, torpaqlarımızı azad edib, bayrağımızı zirvələrdə dalğalandırmışam. Allahın izni ilə yuxuların gerçək olar, olacaq, olmalıdır... Başqa yolu yoxdur. Hər şey yolundadı, məndən nigaran olma.

Aprelin ilk günləriydi. Axşam düşür, hava get-gedə qaralırdı. Zəif külək əsirdi. Həmin gün leytenant Cəfərlinin gözlərində qəribə sevinc vardı. Anasının səsi qulağında əks-səda verirdi: "Uca bir dağın zirvəsinə üçrəngli bayrağımızı sancdığını görürəm". Sanki tezliklə ata-baba torpaqlarına qayıtmaq düşüncəsinin verdiyi fərəh bütün bədənini sarır, ürəyinə qəribə sevinc gətirir.

Gecədən bir az ötmüşdü. Erməni diversiya qruplarının bütün sərhədboyu ərazilərdən basqına keçməsi məlumatı alınır. Gənc komandir silaha sarılıb tabeliyində olan şəxsi heyətə müvafiq komandalarla yerlərini tutmağı əmr edir. Verilən komanda nəticəsində düşmən üzərinə əks-həmlə ilə hücuma keçən bölmələr arasında Ayaz və əsgərləri də döyüşür. Düşmən üzərinə mərmi yağdıra-yağdıra anasının yuxusunun çin olacağını düşünür, əzəli torpaqlarımıza bayrağımızı sancmaq arzusu ilə irəli atılır. Döyüşlər Azərbaycan Ordusunun layiqli qələbəsi ilə nəticələnir. Torpaqlarımızın bir qismi azad edilir.

Bu qələbədə Ayaz və əsgərlərinin də payı olur. Gənc komandir aprel zəfərində iştirakını həyatdakı ən böyük uğuru sayır.

- Mən Azərbaycan Ordusunun zabiti olaraq bu gün də Vətənimin keşiyindəyəm. Torpaqlarımızın bir qisminin azad olunmasında iştirak etmək hələ Vətən qarşısında övladlıq borcunu yerinə yetirmək demək deyil. Təlimlərdə iştirak etməli, döyüş vərdişlərimizi artırmalıyıq. Ali Baş Komandanın əmri ilə tarixi torpaqlarımızı azad edəcəyimiz gün tam rahat olacağıq.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Baş Qərvənd, Kəngərli, Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" kitab-albomu çapdan çıxıb

*Prezident İlham Əliyevin Sərəncamı ilə elan olunan "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" adlı kitab-albomu çapdan çıxıb.*

AZƏRTAC xəbər verir ki, "Apostrof-A" nəşriyyatında nəfis şəkildə çap edilən kitab-albomun layihə müəllifi və tərtibçi-redaktoru Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbanidir.




Kitab-albom əsrin mühüm tarixi hadisələrindən olan Bakının işğaldan azad edilməsinin 100 illik yubileyi münasibətilə Azərbaycan paytaxtında keçirilən möhtəşəm parada həsr olunub.

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Azərbaycan bizim qardaşımızdır" və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik. Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir" sitatları, eləcə də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik. Azərbaycan sevinərsə, biz də sevinərik" və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bu gün, sözün əsl mənasında, tarixi bir gündür. Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq" kəlamları kitab-albomun əsas xəttini təşkil edir.

Müəllifin "15 sentyabr - Bakının azad edilməsi günü qardaş Türkiyənin və Azərbaycanın müştərək milli Zəfər günü, Zəfər bayramıdır" sərlövhəsi ilə təqdim olunan "Ön söz əvəzi" yazısında deyilir: "Yüz il bundan əvvəl - 1918-ci il sentyabrın 15-də Osmanlı Türkiyəsi və Azərbaycan milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusu Bakıya daxil olaraq şəhəri işğalçılardan azad etdi. Bu, XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Müstəqilliyinə yenicə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etmək imkanları yetərincə deyildi. Belə bir şəraitdə özünün də çox ağır durumuna rəğmən, Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan hökumətinin hərbi yardım üçün rəsmi müraciətinə əsasən məhdud hərbi qüvvələrini Azərbaycana göndərdi. Bir çox dövlətlərin türk qoşunlarının ölkəmizə gəlməsinə etiraz etməsinə baxmayaraq, Osmanlı Türkiyəsi öz qardaşlıq köməyini Azərbaycandan əsirgəmədi və 1918-ci ilin avqust-sentyabr aylarında tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Qəhrəman türk əsgərinin, eləcə də yeni yaranmaqda olan Azərbaycan Ordusunun ilk döyüşçülərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirdikləri qətliamlara, ermənilərin özbaşınalıqlarına son qoyuldu. Türk qardaşlığı və birliyi ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinin başlıca məqsədi olan xalqımızı cismən məhv etməklə "böyük Ermənistan" dövləti yaratmaq xülyasının gerçəkləşməsinə, bu mənfur planın reallaşmasına imkan vermədi..."

Bakının işğal edilməsinin 100 illik tarixinə qısa ekskurs edən müəllif daha sonra yazır ki, bir əsrlik zaman kəsiyində istər Türkiyənin, istərsə də Azərbaycanın həyatında bir çox dəyişikliklər olub. Böyük Mustafa Kamal Atatürkün sayəsində Türkiyə Cümhuriyyəti qurulub, inkişaf və tərəqqi edərək güclü, qüdrətli dövlətə çevrilib. Müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də rus-bolşevik qoşunları tərəfindən süquta uğradılıb, ölkə 70 ildən çox Sovet İttifaqının tərkibində qalsa da, 1991-ci ildə xalqımız Azərbaycanın dövlət müstəqilliyini bərpa edib. Sovet dövrünün, kommunist rejiminin qadağalarına baxmayaraq, Azərbaycan-Türkiyə qardaşlığını heç bir qüvvə sarsıda bilməyib.

Nəşrdə qeyd olunub ki, XX əsrin 90-cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyevin sayəsində bu dostluq və qardaşlıq daha da möhkəmlənib, geniş vüsət alıb. Azərbaycan-Türkiyə qardaşlığı bu gün hər iki ölkənin dövlət başçıları Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən daha da genişlənməkdədir. Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş təntənələrdə iştirak etmək üçün qardaş Türkiyə Prezidentinin Azərbaycana gəlişi, Azərbaycan Prezidenti ilə birlikdə tribunadan qalxaraq əsgərləri salamlaması, 15 sentyabr - Zəfər günü münasibətilə Türkiyə və Azərbaycan xalqlarını təbrik etməsi uzun müddət yaddaşlardan silinməyəcək.

Qeyd edək ki, nəşrdə qardaş Türkiyənin və Azərbaycanın müştərək Zəfər bayramı - Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş parad və digər tədbirlər barədə ətraflı məlumat verilir. Kitab-albom Azərbaycan-Türkiyə qardaşlığının əbədi və sarsılmazlığının daha bir bariz nümunəsi, yazılı salnaməsidir.

Kitab-albomda Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın), Müdafiə Nazirliyinin, Türkiyənin Azərbaycandakı hərbi attaşelik aparatının, Bakı Media Mərkəzinin, ordu.az hərbi xəbərlər internet saytının materiallarından istifadə edilib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanması, Azərbaycan Prezidenti ilə görüşü, hər iki ölkə prezidentinin Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmələri, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin, eləcə də Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirə kompleksinin önünə əklillər qoymaları, Azadlıq meydanında keçirilən parad, qardaş ölkələrin dövlət başçılarının həmin paradda tarixi çıxışları, parad iştirakçıları ilə birgə şəkil çəkdirmələri və Bakı sakinləri ilə görüşləri əks etdirən fotolar həmin günün tarixi anlarını özündə yaşadır.

Nəşrdə görkəmli elm, ədəbiyyat, mədəniyyət xadimlərinin, deputatların, ictimaiyyət nümayəndələrinin bu tarixi parad haqqında təəssüratları da böyük maraq doğurur.

Türkiyə Respublikasının Azərbaycandakı səfiri Erkan Özoral, Milli Məclisin komitə sədri, akademik Ziyad Səmədzadə, Ənvər paşanın nəvəsi Arzu Ənvər Əroğan, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, deputat, siyasi elmlər doktoru, professor Elman Nəsirov, general-mayor Rasim Əliyev, tarix elmləri doktoru Mehman Süleymanov, Əməkdar jurnalist Rəşid Faxralı və başqaları Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş bu mühüm tədbiri Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinin nümayişi kimi dəyərləndirirlər.

Kitab-albom Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda Türkiyənin məşhur "Anadolu Atəşi" birliyinin və Azərbaycan incəsənət ustalarının birgə böyük bayram konsertinin görüntüləri ilə tamamlanır.

"Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" kitab-albomu Müdafiə Nazirliyinin dəstəyi ilə nəşr edilib.

Nəşrin təqdimat mərasimi oktyabrın sonlarında, qardaş Türkiyə Respublikasının qurulmasının 95 illik yubileyi ərəfəsində Azərbaycanda və Türkiyədə keçiriləcək.



# Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunkturasına qəbul prosesi başlayıb



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə qüvvəyə minmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrində elmi və elmi-pedaqoji kadrların hazırlanması haqqında Təlimat"ın tələblərinə uyğun olaraq oktyabrın 16-da Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunkturasına qəbul prosesi həyata keçirilib.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin rəisi - professor, polkovnik Elşən Həşimov məruzə ilə çıxış edərək bildirib ki, təlimata uyğun olaraq yaradılan qəbul komissiyası Adyunkturaya sənəd vermiş namizədlərin sənədlərini müvafiq qaydada yoxlayıb və qəbul edib. 2018-ci ilin iyununda keçirilmiş ilkin seçim və söhbətləşmədə komissiya üzvləri və elmi rəhbərlər iştirak ediblər. İlkin seçim mərhələsinin nəticələri Hərbi Akademiyanın Elmi şurasına təqdim edilib. İmtahanlara hazırlıq məqsədilə Hərbi Akademiya namizədlərlə dərslər və məsləhət saatları təşkil edilib və keçirilib.

İmtahan komissiyasının rəhbəri, Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev imtahan komissiyası yanında yardımçı komissiyanın üzvləri ilə görüşərək imtahanların yüksək səviyyədə keçirilməsi, obyektivliyin və şəffaflığın təmin olunması barədə konkret tapşırıqlar verib.

Nazir müavini, həmçinin adyunkturaya qəbul olmaq arzusunda olan namizədlərlə də görüşərək onlara imtahanda uğurlar arzulayıb, yaradılan elmi mühitdən yararlanmağı tövsiyə edib.

Qeyd edək ki, namizədlərin ixtisas hazırlığı, xarici dil və fəlsəfədən verəcəkləri imtahanlardan sonra ümumi nəticələrə əsasən qəbul olanların adları məlum olacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!

## Dövlət Müstəqilliyi Günü hərbi hissələrdə qeyd edildi

*Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin elan edilməsinin 27 illiyi münasibəti ilə Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri ilə birgə bayram tədbirləri təşkil olundu.*

*Əvvəlcə ümummilli lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Təsdiq olunmuş plana əsasən, hərbi hissələrdə keçirilən bayram konsertlərində, mədəni-kütləvi, hərbi vətənpərvərlik və digər tədbirlərdə şəxsi heyət, veteranlar, məktəblilər, tələbələr və ictimaiyyət nümayəndələri iştirak etdilər. Tədbirlərdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Gəncə Qarnizonu Zabitlər Evinin, rayon və şəhər mədəniyyət qurumlarının kollektivləri maraqlı proqramlarla şəxsi heyət qarşısında çıxışlar etdilər.*





Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 18 Oktyabr Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" mövzusunda tədbir keçirildi.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti Niyaməddin Tağıyev çıxış edərək bildirdi ki, dövlət müstəqilliyinin qazanıldığı ilk illərdə muxtar respublika əhalisinin ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşməsi və dahi liderin uzaqgörən siyasəti nəticəsində Naxçıvan düşmən hücumlarından qorundu. “Xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkədə ictimai-siyasi sabitlik təmin edildi, ordu quruculuğunda genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanıldı və düşmənin irəliləməsinin qarşısı alındı. Ümummilli Liderin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə aparılır. Bu gün ölkə başçısının, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyəsi əhəmiyyətli dərəcədə artırılır. Müdafiə qüdrəti durmadan artan Naxçıvan Muxtar Respublikasında yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Təlimlərdə tər tökərək daha da bərkiyən hərbi qulluqçularımız ötən il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradda böyük qürurla iştirak edərək xalqımıza qürur, düşmənlərimizə qorxu hissi yaşatdı.”

Sonra Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov və Əlahiddə Ümumqoşun Ordunun zabiti Zaur Həmidov çıxış edərək bildirdilər ki, 2018-ci ilin mayında hərtərəfli düşünülmüş və dəqiqliklə planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində Şərur rayonunun Günnüt kəndi də daxil olmaqla, Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi düşməndən azad edildi. Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhəddi boyu əlverişli hədlərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi və qarşıya qoyulmuş məqsədə nail olundu. Təbii ki, bütün bunlar da müstəqilliyimizin bəhrələrini özündə yaşadan ordumuzun qüdrətindən xəbər verir. Bu gün Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvanımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.”

Çıxışların ardından Müstəqillik Gününə həsr edilmiş videoçarx nümayiş olundu. Heydər Əliyev adına Hərbi Liseyin kursantları Vətənimizə həsr edilmiş şeirlər söylədilər. Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının üzvləri əsgərlər qarşısında çıxış etdi, ifaları ilə hərbi qulluqçularda bayram əhvalruhiyyəsi yaratdılar.

Tədbirdə, həmçinin "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunmuş rəsm müsabiqəsinin qalibləri mükafatlandırıldılar. Müsabiqədə 1-ci yeri Heydər Əliyev adına Hərbi Liseyin kursantı Firuz Novruzov, 2-ci yeri əsgər İsa İbrahimli, 3-cü yeri isə əsgər Aslan Səfərov tutdu.

**Leytenant
Nəriman NƏCƏFOV,
“N” hərbi hissəsi**

* * *

“Ulu öndər Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yürütdüyü siyasət bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi əldə edib.”




Bu fikirlər oktyabrın 17-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümü münasibəti ilə Azərbaycan Hərb Tarixi Muzeyində keçirilən tədbirdə səsləndirildi.

"Müstəqillik illərində ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətində fəaliyyət" mövzusunda məruzə ilə çıxış edən muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə bildirdi ki, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra respublikamız uzun müddət SSRİ-nin tərkibində olsa da, xalqımız həmişə müstəqillik arzusu ilə yaşayıb. “Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk vaxtlarından başlayaraq, həmişə ölkəmizin dövlət müstəqilliyini bərpa edəcəyinə inanıb və uzaqgörənliklə bu istiqamətdə mühüm tədbirlər görüb. Ötən əsrin 70-ci illərində dahi şəxsiyyətin yaratdığı indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey dövlət müstəqilliyimizin qarantı olan bugünkü güclü Silahlı Qüvvələrimizin formalaşmasında mühüm rol oynayıb. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində atılan ən böyük addım 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə ilk Konstitusiyamızın qəbul edilməsi oldu.”

Sonra məruzə ətrafında müzakirələr aparıldı.

Dövlət Müstəqilliyi Gününə həsr olunan qısametrajlı sənədli film nümayiş etdirildi.

Diqqətə çatdırıldı ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsinə baxmayaraq, həmin tarixi günə qovuşmağımızın təməlində məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Heydər Əliyev deyirdi ki, Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir və müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi.

Tədbirdə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən muzeyə müxtəlif eksponatlar təqdim olundu.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

(Ardı 5-ci səhifədə)

# "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!"

(Əvvəli 4-cü səhifədə)

"N" hərbi hissəsində Müstəqillik Gününün 27-ci ildönümünə həsr olunmuş bayram tədbiri keçirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Rasim İbrahimov tədbir iştirakçılarını mötəbər gün münasibətilə təbrik etdi və dövlət müstəqilliyinin bərpasına xalqın möhkəm iradəsi sayəsində nail olduğumuzu vurğuladı: "Dövlət müstəqilliyimizi qazandığımız gündən 27 il ötür. Tarixən keşməkeşli yollardan keçən xalqımız azadlıq əzmini bir əsrdə iki dəfə nümayiş etdirmişdir. İlk qazandığımız müstəqillik dövründə iqtisadi və siyasi vəziyyətin balanslaşdırılmış səviyyədə olmaması, vahid ordumuzun tam formalaşmaması Cümhuriyyətimizin qısa ömür sürməsinə və kənar qüvvələrin buraya müdaxilə etməsinə münbit şərait yaratmışdı. 1991-ci ildə Sovet imperiyasının süqutu bu tarixi prosesi yaşamağımız üçün əlverişli imkan yaratdı. Belə şəraitdə həmin ilin avqustunda Azərbaycan Respublikasının Ali Sovetinin növbədənkənar sessiyasında dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edildi. Azərbaycan Respublikasının Ali Sovetinin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev müstəqilliyimizin bünövrəsini daha da möhkəmləndirdi. Siyasi, iqtisadi vəziyyətin yaxşılaşdırılması, beynəlxalq münasibətlərin möhkəmləndirilməsi və digər qarşıya qoyulan tapşırıqlar uğurla icra olundu. Ulu Öndərin başlatdığı siyasət bu gün onun layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün hər birimiz bizə müstəqillik qazandıran və onu möhkəmləndirən şəxslərə sonsuz minnətdarıq".



Çıxış edən Əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev tədbir iştirakçılarını salamladı və tarixi gün münasibətilə hamının bayramını təbrik etdi. Qazanılan müstəqilliyin xalqımızın ən böyük nailiyyətlərindən biri olduğunu bildirdi: "Azadlıq ən gözəl məfhumdur. Ötən əsrdə iki dəfə müstəqillik qazanmağımız xalqımızın möhkəm iradəsindən xəbər verir. Bu gün ordumuzun ən böyük dayağı xalqımızdır. Ordumuz da öz növbəsində xalqın müdafiəçisidir. Bugünkü tarixi günü Azərbaycan əsgəri ilə qeyd etmək bizim üçün ikiqat sevinclidir. 27 il əvvəl bərpa edilən müstəqillik gənc və gələcək nəsil üçün əsl həmrəylik nümunəsidir. Müstəqilliyimiz vətənpərvər oğullarımız olduğu müddətcə qorunub və bundan sonra da qorunacaq".

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə sona çatdı.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

* * *

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində 18 Oktyabr Dövlət Müstəqilliyi Günü ilə bağlı tədbir keçirildi.

Tədbirdə mayor Rüstəm Əliyev çıxış edərək şəxsi heyəti bayram münasibətilə təbrik etdi. Zabit Azərbaycanın dövlətçilik tarixi və müstəqillik uğrunda aparılan mübarizədən danışdı. Müstəqilliyin bərpa edilməsi istiqamətində Azərbaycanın keçdiyi məşəqqətli yol barədə məlumat verdi. Bildirdi ki, xalqımız ağır sınaqlardan keçdikdən, bu amal uğrunda şəhidlər verdikdən sonra müstəqilliyini bərpa etməyə nail oldu. "1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri mübarizə apardığı azadlığına qovuşdu. Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı. Özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Az müddət sonra Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri bərpa edildi."

"Müstəqilliyin qorunub saxlanılması isə onun qazanılmasından qat-qat çətindir", - deyən zabit müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi problemlərdən bəhs edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır nəticələrindən və daxili hərc-mərclik barədə məlumat verdi. Vurğuladı ki, son dərəcə ağır bir vaxtda xilaskarlıq missiyasını cəsarətlə öz üzərinə götürən Heydər Əliyev Azərbaycanı məhv olmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. "Yalnız 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə respublikamızda ali siyasi hakimiyyətə qayıtdıqdan sonra onun böyük uzaqgörənliyi, zəngin idarəetmə təcrübəsi və qətiyyəti sayəsində Azərbaycanın əsl müstəqilliyi təmin edildi. Bununla da ölkənin gələcək inkişafı üçün əsaslı zəmin yaradıldı. Müstəqil dövlət quruculuğu, onun təhlükəsizliyinin, ərazi bütövlüyünün təmin edilməsi, iqtisadiyyatın bərpa olunması, demokratik inkişaf, Azərbaycanın beynəlxalq əlaqələrinin qurulması və dünya birliyinə inteqrasiyası Heydər Əliyevin milli inkişaf strategiyasının başlıca konturlarını təşkil etdi. Ümummilli Liderimizin hakimiyyətdə olduğu 1993-2003-cü illər Azərbaycan tarixinə dərin islahatlar dövrü kimi daxil oldu. Onun rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkəmizdə əmin-amanlıq bərqərar oldu, xarici siyasətin prioritetləri müəyyən edildi. Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesləri başladı.Müstəqilliyimizin siyasi və iqtisadi sütunları möhkəmləndi. Ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirildi."

Zabit Rüstəm Əliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrildiyini də vurğuladı.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin hazırladığı konsert proqramı ilə davam etdi. Vətənə, Azərbaycana həsr olunan hərbi vətənpərvərlik ruhunda mahnılar tədbir iştirakçılarında xoş ovqat yaratdı.



**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

* * *

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin birgə təşkilatçılığı ilə "18 Oktyabr Dövlət Müstəqilliyi Günü" münasibəti ilə tədbir təşkil olundu.

Azadlığa qovuşmaq və müstəqil dövlətə sahib olmaq hər bir xalqın, millətin tarixində mühüm yer tutan hadisələrdəndir. Müstəqillik elə şirin bir nemətdir ki, onu qazanmaq çətindir. Bu yolda canını qurban verməyi, son damla qanına qədər mübarizə aparmağı bacarmalısan. Məhz Azərbaycan xalqı da şanlı tarixində belə mübarizələrdən uğurla çıxıb. Xalqımız öz azadlığı uğrunda ölüm-itimdən çəkinməyib, son anadək mübarizə aparıb. Azadlığa aparan mürəkkəb yolda bütün çətinliklərə sinə gərən xalqımız öz azadlığına qovuşub. Bu gün hər birimiz xoşbəxtik ki, müstəqil dövlətimiz, nizami ordumuz var.

20-ci əsrdə müstəqilliyə qovuşmaq üçün çətin mübarizə yolu keçən xalqımız, nəhayət,1991-ci ilin oktyabrında yenidən tarixi müstəqilliyinə qovuşdu. "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin qayıdışından sonra əldə etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev, zəngin siyasi təcrübəsinin, yüksək idarəçilik bacarığının, Vətənə olan tükənməz sevgisinin nəticəsində Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldıraraq müstəqil Azərbaycan Respublikasını möhkəm əsaslar üzərində inkişaf etdirdi.

Tədbirdə çıxış edən polkovnik Qadir Vəlişov tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik edərək, şərəfli xidmətlərində uğurlar arzuladı. Sözünə davam edən zabit, güclü ordunun müstəqilliyin qarantı olduğunu vurğulayaraq, müstəqillik qazandıqdan sonra ordu quruculuğunda gedən inkişafdan söz açdı:

- Təcrübəli siyasi liderin hakimiyyətə qayıdışı ilə Azərbaycanın bütün sahələrində olduğu kimi, ordu quruculuğu istiqamətində də qətiyyətli addımlar atıldı. Həmin vaxtlar nizami ordunun yaradılması ən zəruri tədbirlərdən idi. Çünki gənc, müstəqil dövləti hərbi təcavüzlərdən qorumaq üçün vahid komandanlıq tərəfindən idarə olunan nizami ordunun yaradılması ən vacib şərtlərdən idi. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə də dirçəlişə nail ola bildi. O, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, nizami ordunun qurulması prosesinə böyük inamla start verdi. Ulu Öndərin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Hərbi sahədə aparılan uğurlu islahatların nəticəsidir ki, güclü maddi-texniki baza, peşəkar, savadlı, bacarıqlı zabit heyətinə və yüksək döyüş hazırlıqlı əsgərlərə sahib olan nizami ordumuz var. Əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu regionun ən güclü ordusudur və işğal olunmuş torpaqlarımızı hərb yolu ilə azad etməyə hər an hazır və qadirdir.




Tədbirin bədii hissəsində Ümummilli Liderin dövlət müstəqilliyi haqqında çıxışlarından bəhs edən videoçarxlar nümayiş etdirildi. Sonra kursantlardan və İncəsənət Gimnaziyasının şagirdlərindən ibarət yaradıcı kollektiv maraqlı konsert proqramı ilə tədbir iştirakçılarına xoş təəssüratlar bağışladı. Sonda tədbirin ərsəyə gəlməsində fəal iştirakına görə İncəsənət Gimnaziyasının şagirdlərinə hərbi məktəbin rəhbərliyi tərəfindən fəxri fərmanlar təqdim olundu.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Respublika Veteranlar Təşkilatının 30 illik yubileyi qeyd olunub

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı fəaliyyət göstərdiyi 30 il ərzində ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib və bu gün də yüksək fəallığı ilə seçilən aparıcı ictimai qurumlardan biridir. Hazırda sıralarında müharibə, əmək, Silahlı Qüvvələr və hüquq-mühafizə orqanları veteranları olmaqla, bir milyondan çox üzvü birləşdirən təşkilatın yubileyinin qeyd edilməsi böyük əhəmiyyət daşıyır. Qurum vətənpərvərlik tərbiyəsini, eləcə də azərbaycançılıq məfkurəsini gənc nəsil arasında təbliğ edir, ölkəmizin ərazi bütövlüyünün təmin olunması, erməni faşizminin ifşası, eləcə də dünyada sülhün və əmin-amanlığın qorunub saxlanılmasına töhfələr verir.



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illik yubileyi münasibətilə oktyabrın 16-da Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində keçirilən tədbirdə səslənib.

Yubiley tədbirində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Böyük Vətən müharibəsi veteranı, Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov, təşkilatın üzvləri, ictimai qurumların təmsilçiləri və gənclərlə yanaşı, müxtəlif ölkələrin veteran qurumlarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların, İkinci Dünya müharibəsində həlak olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət himni səsləndirilib.

Sonra Binəqədi rayonundakı 83 nömrəli məktəb-liseyin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bu qurumun yaradılmasının 30 illik yubileyi münasibətilə İkinci Dünya, Əfqanıstan, Qarabağ müharibələrində qəhrəmanlıq nümayiş etdirmiş, Vətənə canı bahasına xidmət etmiş veteranları təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynov adından təbrik edib.

Ölkəmizdə veteran hərəkatının yaranması və təşkilatın fəaliyyəti haqqında danışan Cəlil Xəlilov qeyd edib ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin qazanılmasına böyük töhfələr vermiş veteranlara Azərbaycanda ən yüksək diqqət və qayğının göstərilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin respublikaya rəhbərliyinin birinci dövründə veteranlar təşkilatının fəaliyyətində canlanma yaranıb və bu hərəkat bütün ölkəni əhatə edib. Dahi şəxsiyyətin Vətən, xalq qarşısında xidmətləri olan insanlara qayğıkeş münasibəti, bütün rayon və şəhərlərdə veteran təşkilatlarının yaranmasına göstərdiyi kömək hərəkatın yüksəlişində başlıca rol oynayıb.

Diqqətə çatdırılıb ki, Respublika Veteranlar Təşkilatına təsis olunanda general-mayor Mustafa Nəsirov sədrlik edirdi. Ancaq 1990-cı illərin əvvəllərində ölkədə yaşanan hərc-mərclik Respublika Veteranlar Təşkilatının fəaliyyətinə də mənfi təsir göstərib. Məhz ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyəti bərpa olunub, 9 May Qələbə Günü yenidən dövlət bayramları sırasına daxil edilib, müharibə iştirakçılarının və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılıb.

Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı "Veteranlar haqqında" Qanunda bu diqqət və qayğının hüquqi əsasları müəyyənləşdirilib. Onun veteranlara qayğı siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, veteranlara dövlət qayğısı yeni səviyyəyə qaldırılıb. Bu qayğının ən son nümunəsi kimi Respublika Veteranlar Təşkilatına ayrılan inzibati binanı, müntəzəm imzalanan sərəncamlar əsasında 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, faşizm üzərində qələbə münasibətilə ayrılan birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildən-ilə artırılmasını, veteranların və müharibə əlillərinin mənzil və avtomobillə təmin edilməsini, onlara Prezident təqaüdünün verilməsini və digər məsələləri qeyd etmək olar.



Veteranların sosial müdafiəsinin təminində bütün dövlət orqanlarının köməyini yüksək qiymətləndirən, Prezidentin qayğısını xüsusi qeyd edən C.Xəlilov səmərəli fəaliyyətin təşkilində göstərilən dəstəyə görə veteranlar adından Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib. Vurğulanıb ki, Respublika Veteranlar Təşkilatının fəaliyyətinin səmərəli qurulmasında Prezident İlham Əliyevin rəhbərliyi ilə veteranlara göstərilən diqqət və qayğı mühüm rol oynayır. Prezident İlham Əliyevin veteranlara hərtərəfli qayğı siyasətinin başlıca məqsədi vətənpərvər insanların xidmətlərinin qiymətləndirilməsi, cəmiyyətdəki mövqelərinin, sosial müdafiəsinin gücləndirilməsidir. Veteranlar bu qayğını daim yüksək qiymətləndirir, buna əməli işləri, ölkənin ictimai-siyasi həyatında yaxından iştirakları ilə cavab verməyə çalışırlar. Yaradılmış şəraitə görə dövlətimizin başçısına daim minnətdar olan veteranlar Prezidentimizin daxili və xarici siyasətini fəal dəstəkləyirlər.



C.Xəlilov Respublika Veteranlar Təşkilatının hazırda gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların dövlətimizə və xalqımıza sədaqət ruhunda yetişmələri istiqamətində ardıcıl və səmərəli fəaliyyətindən, veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində görülən işlərdən, Təşkilatın xarici ölkələrin müvafiq təşkilatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən, mətbuatda aparılan təbliğat işlərindən danışıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Tahir Süleymanov əlamətdar hadisə münasibətilə dost ölkələrdən gəlmiş veteran təşkilatlarının rəhbərlərini salamlayıb, Respublika Veteranlar Təşkilatının üzvlərini, veteranları yubiley münasibətilə təbrik edib. T.Süleymanov bildirib ki, Respublika Veteranlar Təşkilatının Azərbaycan cəmiyyətinin həyatında müstəsna yeri və rolu var. Bu müstəsnalıq ondan irəli gəlir ki, təşkilatın sıralarında Azərbaycanın ən layiqli nümayəndələri, o cümlədən İkinci Dünya, Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçıları, Silahlı Qüvvələr və əmək veteranları birləşiblər. Veteranların keçdiyi döyüş və həyat yolu hər bir azərbaycanlı, xüsusən də gənclər üçün örnəkdir. Müxtəlif təşkilatlar gənclərlə görüş keçirdiyində veteranlarımızı dəvət edirlər, onlardan öz şərəfli həyat yollarından danışmalarını istəyirlər. Təsadüfi deyil ki, bugünkü tədbirdə veteranlarla yanaşı, çoxlu sayda gənc də iştirak edir.

Tahir Süleymanov qeyd edib ki, Respublika Veteranlar Təşkilatının əsas vəzifələrindən biri veteranlara qayğı göstərilməsi, onların sosial hüquqlarının təmin olunması istiqamətində fəaliyyət göstərməkdir. Qurum bu istiqamətdə dövlət orqanları ilə səmərəli əməkdaşlıq edir. Azərbaycanda veteranlara göstərilən dövlət qayğısından danışan Prezident Administrasiyasının şöbə müdirinin müavini bildirib: "Ümummilli lider Heydər Əliyev veteranlara daim yüksək diqqət və qayğı göstərirdi. Məhz Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycanda "Veteranlar haqqında" Qanun qəbul edilib, veteranlarla iş dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Dövlət tərəfindən müharibə əlillərinə, şəhid ailələrinə, veteranlara evlərin, mənzillərin, minik avtomobillərinin paylanılmasına başlanılıb. Bu siyasəti davam etdirən Prezident İlham Əliyev 2015-ci ildə Respublika Veteranlar Təşkilatının yeni inzibati binasının açılışında iştirak edib. Respublika Veteranlar Təşkilatına hər il dövlət büdcəsindən birbaşa maliyyə yardımları ayrılır. Dövlət tərəfindən veteranlara, Respublika Veteranlar Təşkilatına qayğı göstərilir. Bu diqqət və qayğı gələcəkdə də yüksələn xətlə davam edəcək".

Yubiley münasibətilə təşkilatın rəhbərliyini və bütün üzvlərini bir daha təbrik edən Tahir Süleymanov gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi işində onlara uğur, əzm və fədakarlıq arzulayıb.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov veteranları təbrik edib, onlara can sağlığı və uğurlar arzulayıb. Veteranların Azərbaycanın müstəqilliyinin qorunmasında və möhkəmlənməsində, ölkəmizin inkişafında əsl vətənpərvərlik nümunəsi göstərdiklərini, Prezidentin həyata keçirdiyi siyasəti tam dəstəklədiklərini vurğulayan Siyavuş Novruzov onların gənc nəsillərə örnək olduğunu deyib. Bildirib ki, veteranlardan ilham və tövsiyə alan gənclərimiz Vətən uğrunda canlarından da keçməyə hazırdırlar. Aprel döyüşləri bunun bariz nümunəsidir.




Siyavuş Novruzov qeyd edib ki, Böyük Vətən müharibəsində 700 minədək azərbaycanlı iştirak edib. Qarabağ döyüşlərində Azərbaycan əsgərləri həmişə rəşadətlə vuruşublar. Veteranlar onlara daim nümunə olub, təcrübələrini cəbhə bölgəsində əsgərlərlə bölüşüblər. Odur ki, biz veteranlarımızı daim qorumalı, onların sosial təminatını diqqət mərkəzində saxlamalıyıq. Bu gün veteranlarımıza Azərbaycan dövləti tərəfindən ən yüksək diqqət və qayğı göstərilir. Bu qayğının banisi xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu Öndərimizin hakimiyyətə qayıdışından sonra veteranların hüquqları bərpa olunub və sosial müdafiəsi təmin edilib. Bu gün Prezident İlham Əliyev veteranlara qayğı göstərilməsini daim diqqət mərkəzində saxlayır. İlham Əliyevin prezident seçildiyi 15 il ərzində veteranlarımız dövlətin tam qayğısı ilə əhatə olunub.



Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Aydın Əyyubov nazirliyin rəhbərliyi və kollektivi, ordumuzun şəxsi heyəti adından Respublika Veteranlar Təşkilatının bütün üzvlərini yubiley münasibətilə təbrik edib. O bildirib ki, təşkilat ordumuzun şəxsi heyətinin döyüş və mənəvi ruhunun yüksəldilməsində, xalqımızın qəhrəmanlıq ənənələrinin gənclərə çatdırılmasında böyük işlər görürlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini İdris İsayev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin, Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev Gənclər və İdman naziri Azad Rəhimovun, Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini general-mayor İlqar Musayev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyevin yubiley münasibətilə veteranlara təbrik məktublarını oxuyublar.

Tədbirdə iştirak edən qonaqlar - Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov, Müstəqil Dövlətlərin Veteran İctimai Təşkilatları Beynəlxalq İttifaqının sədr müavini Vladimir Tkaçenko, Rusiya Veteranlar Təşkilatının sədr müavini Aleksandr Kravçuk, Ukrayna Veteranlar Təşkilatının sədri Viktor Şmakov, Qazaxıstan Veteranlar İctimai Birliyinin sədr müavini Aytkali İsenqulov, Belarus Veteranların İctimai Birliyinin sədri İvan Qordeyçuk, Gürcüstan Müharibə və Silahlı Qüvvələr Mərkəzi Veteranlar Təşkilatının sədri Tengiz Şubladze və başqaları çıxışlarında Azərbaycan Respublikası Veteranlar Təşkilatı ilə səmərəli əməkdaşlıq əlaqələrindən, ölkəmizdə veteranlara göstərilən dövlət qayğısından danışıb, yubiley münasibətilə səmimi təbriklərini çatdırıblar.

Yubiley tədbiri bədii hissə ilə davam edib.

# Respublika Veteranlar Təşkilatının 30 illiyi münasibətilə beynəlxalq konfrans keçirilib

*Oktyabrın 17-də Bakıda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illiyinə həsr olunmuş "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.*



Tədbirdə Dünya Veteranları Federasiyasının sədri Dan-Viqqo Berqtun (Norveç), Azərbaycan, Rusiya, Qazaxıstan, Belarus, Ukrayna, Gürcüstan, Bolqarıstan və digər ölkələrin veteran təşkilatlarının rəhbərləri, "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının üzvü olan ölkələrin nümayəndələri, veteranlar və ictimai xadimlər iştirak ediblər.

Konfransın əsas məqsədi dünyada sülhün bərqərar edilməsinə töhfə vermək, ölkəmizin tolerantlıq ənənələrini təbliğ etmək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri, erməni faşizminin mahiyyətini dünya ictimaiyyətinə çatdırmaqdır. Dünyanın 23 ölkəsindən gəlmiş qonaqların iştirakı ilə keçirilən konfransda qlobal və regional təhlükəsizlik məsələləri, habelə İkinci Dünya müharibəsi illərində faşizm üzərində Böyük Qələbənin tarixi və mədəni irsinin əbədiləşdirilməsinə, qorunub saxlanılmasına dair tədbirlər müzakirə edilib.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov qeyd edib ki, veteranlar hər bir dövlətin qızıl fondu, cəmiyyətdə mənəvi və əxlaqi dəyərləri müəyyən edən təməldir. O bildirib ki, ərazilərimizi hərbi yolla geri qaytarmaq hüququnu özümüzdə saxlayırıq. 2016-cı ilin aprel hadisələri Azərbaycan Ordusunun nəyə qadir olduğunu düşmənlərimizə aydın şəkildə göstərdi".

Sonra konfransda tematik məruzələr dinlənilib.

Müstəqil Dövlətlərin Veteranlar İctimai Təşkilatları Beynəlxalq İttifaqının Əlaqələndirmə Şurası sədrinin müavini Vladimir Tkaçenko bildirib ki, Azərbaycanda veteranlara xüsusi diqqət yetirilir. “Respublika rəhbərliyinin veteran təşkilatlarına daim diqqət və qayğı göstərdiyini qeyd etməmək olmaz. Azərbaycan Respublikasının Prezidenti Böyük Vətən müharibəsi iştirakçılarının və onlara bərabər tutulan şəxslərin pensiya müavinətləri ilə təmin olunması üçün çoxlu sayda Sərəncam imzalayıb. Əlaqələndirmə Şurası respublika veteranlarına bu şəkildə dəstək göstərilməsi barədə Birlik ölkələrinin veteran təşkilatlarını məlumatlandırır və onlara gündəlik fəaliyyətlərində həmin təcrübədən istifadə etməyi tövsiyə edir".

Ukrayna Veteranlar Təşkilatının sədri Viktor Şmakov "Azərbaycan və Ukrayna veteranları dostluğu" mövzusunda məruzəsində sülh uğrunda mübarizədə veteran təşkilatlarının rolundan danışıb. O çıxışında deyib: “Xarkovun, Odessanın, Nikolayevin və Herson vilayətinin azad edilməsində Azərbaycan diviziyalarının rolunu qeyd etməyə bilmərəm”.

Milli Aviasiya Akademiyasının hüquqşünaslıq kafedrasının müdiri İbrahim Quliyev vurğulayıb ki, bu konfrans MDB ölkələrinin veteran təşkilatlarının dünyada, o cümlədən regionumuzda sabitliyin hökm sürməsində nə qədər maraqlı olduğunu göstərir.

Tanınmış politoloq, hüquqşünas alim, professor Oleq Kuznetsov "Ermənistanda nasizmin qəhrəmanlaşdırılması - müasir dünya nizamı prinsiplərinin yenidən nəzərdən keçirilməsi" mövzusunda məruzəsində qeyd edib ki, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin arxivlərində işləyəndə İkinci Dünya müharibəsinə aid faktlara rast gəlib. Bu faktlar əsasında əminliklə demək olar ki, o dövrdə daşnaklar hərbi əsir düşərgələrində saxlanılan insanlara işgəncələr verilməsində, habelə Sovet ordusuna qarşı hərbi əməliyyatlarda xüsusi qəddarlıqla iştirak ediblər. O.Kuznetsov vurğulayıb ki, hərbçilərin hərbi əməliyyatlarda qazanc naminə iştirak edən cinayətkarlardan fərqləndirilməsi əsasən hərbçilərdən və bir vaxtlar çiynində paqon gəzdirən kəslərdən asılıdır. O.Kuznetsov fikrini bu sözlərlə tamamlayıb: "Biz başa düşməliyik ki, tam bir sıra ölkələrdə cinayətkarlar siyasi ambisiyalar naminə milli qəhrəmanlar kimi təqdim edilir. Bu, ilk növbədə, Njde ləqəbli Qaregin Ter-Arutyunyanın Ermənistanda dövlət səviyyəsində qəhrəmanlaşdırılması ilə bağlıdır".

Respublika Veteranlar Təşkilatı sədrinin müavini, ehtiyatda olan polkovnik, siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov "Vətənpərvərlik ölkənin təhlükəsizliyinin təməlidir" mövzusunda məruzə ilə çıxış edərək vurğulayıb ki, vətənpərvərlik xalqın tarixi yaddaşının əksidir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti və hökuməti, respublikamızın vətəndaş cəmiyyəti təsisatları tərbiyə, təhsil, informasiya siyasəti sistemində, ictimai şüurun müxtəlif sahələrində vətənpərvərlik ideyalarının düşünülmüş şəkildə əks etdirilməsi istiqamətində yorulmadan irimiqyaslı iş aparırlar.

Tədbirdə fəlsəfə elmləri doktoru, Rusiya Federasiyasının Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının professoru Nizami Məmmədovun, Rusiya Veteranlar İttifaqı Komitəsi Aparatının rəhbəri general-leytenant Aleksandr Kravçukun, Gürcüstan Müharibə və Hərbi Qüvvələr Veteranları Mərkəzi İttifaqının sədri Tengiz Şubladzenin, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin elmi əməkdaşı, fəlsəfə elmləri doktoru Nəcibə Mustafayevanın da məruzələri dinlənilib.

Beynəlxalq konfransa Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov yekun vurub.

**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə ağacəkmə aksiyası

Bu günlərdə "Xocalı Soyqırımını Tanıtma" və "Yeni Yurd" Sosial İnkişaf İctimai birliklərinin, həmçinin "Azərbaycanın Milli Qəhrəmanı Asif (Fred) Məhərrəmov adına İnkişaf Fondu"nun birgə təşkilatçılığı ilə cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100-cü ildönümü ilə əlaqədar tədbir keçirildi. Tədbir iştirakçıları öncə hərbi hissənin ərazisində ictimai birliklər üçün ayrılmış sahədə ağac əkdilər. "Xocalı Soyqırımını Tanıtma", "Yeni Yurd" Sosial İnkişaf İctimai birliklərinin və "Azərbaycanın Milli Qəhrəmanı Asif (Fred) Məhərrəmov adına İnkişaf Fondu"nun rəhbər heyəti və fəalları "Hər şəhidə bir fidan!" devizi altında xatirə parkı saldılar.



Tədbirin rəsmi hissəsi hərbi hissənin akt zalında keçirildi. Ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

"Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu AXC-nin 100 illiyi ilə bağlı dövlət səviyyəsində qeyd olunan tədbirlər haqqında məlumat verdi. O, parkın açılmasında müstəsna xidməti olanların hər birinə təşəkkürünü bildirdi. "Yeni Yurd" İctimai Birliyinin sədri Mahirə Əsədova ordu quruculuğu haqqında öz fikrini zabit və əsgərlərlə bölüşdü. "Azərbaycanın Milli Qəhrəmanı Asif (Fred) Məhərrəmov adına İnkişaf Fondu"nun sədri Ədalət Məhərrəmov, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi sədrinin müavini Dilbər Sultanova, təşkilatın Gəncə Regional Departamentinin sədri, II dərəcəli müharibə əlili Aqil Məmmədov, təşkilatın üzvü, Qarabağ qazisi, ehtiyatda olan polkovnik-leytenant Zahid Qarayev, Birliyin Qadınlar Şurasının sədri Ayna Allahyarqızı, Birliyin Mərkəzi Aran rayonları üzrə Departamentinin sədr müavini Rauf Mirzəyev, "N" hərbi hissəsinin formalaşmasında müstəsna xidməti olan Qarabağ qazisi Qədir Musayev və başqaları hərbi hissədə şəxsi heyətə yaradılan şəraitdən məmnun olduqlarını qeyd etdilər. Sonda Füzuli rayon mədəniyyət şöbəsinin "Qarabağ" instrumental ansamblının üzvləri, habelə, istedadlı müğənnilər - Tərlan Novxanılı və Ulduzə Qədirova maraqlı konsert proqramı ilə hərbi hissənin şəxsi heyəti qarşısında çıxış etdilər.

**Şamilə ŞAMİLQIZI**



# Şagirdlər Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi ilə tanış olublar

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) təşkilatçılığı ilə 20 nömrəli məktəb-liseyin şagird və müəllimlərinin bir qrupunun Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə (TTM) ekskursiyası olub.

Şagirdlərin valideynlərinin də iştirak etdikləri ekskursiyada məktəblilər silahlar, zirehli texnikalar, ordu həyatı, radiotexniki qoşunlar, zenit-artilleriya və zenit-raket kompleksləri haqqında ətraflı məlumatlandırılıblar.

Daha sonra məktəblilərə Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda ordu quruculuğu sahəsində əvəzsiz xidmətlərindən, Silahlı Qüvvələrimizə qayğı və dəstəyindən, eləcə də müasir Azərbaycan Ordusunun aprel döyüşlərində göstərdiyi yüksək döyüş qabiliyyəti və qəhrəmanlıqlarından bəhs edən film nümayiş olunub.

**"Azərbaycan Ordusu"**

# "Qanbağışlama" aksiyası keçirildi

Oktyabrın 18-də Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan bankında 18 Oktyabr Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Qanbağışlama" aksiyası keçirdi. Aksiyada Həmkarlar İttifaqı Komitəsinin üzvləri ilə yanaşı, hərbçilər də iştirak etdilər.



Silahlı Qüvvələrin Baş Klinik Hospitalının rəisi tibb xidməti polkovniki Tofiq Tağıyev bildirdi ki, belə aksiyalar ordu ilə xalqın birliyinin göstəricisi olmaq etibarilə ordu quruculuğuna xidmətdir. "Baş Klinik Hospitalda olan xəstələr daim diqqət mərkəzindədirlər. Bugünkü aksiyada iştirak edən hər kəsə minnətdaram".

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova qeyd etdi ki, bir neçə ildir ardıcıl keçirilən "Qanbağışlama" aksiyası könüllüdür. "Biz davamlı olaraq Vətənimizin müdafiəsində dayanan hərbçilərin yanında oluruq. Bu, onlara həm də mənəvi dəstəkdir. Yaralılar görür ki, ictimaiyyət onlara nə səviyyədə ehtiram bəsləyir. Bununla yanaşı, Həmkarlar İttifaqının əməkdaşları müntəzəm olaraq hərbi hissələrdə, cəbhə bölgələrində olurlar. Mənəvi dəstəyimizlə Vətənin keşiyini çəkənlərimizdə, düşmən təxribatlarının qarşısını alanlarımızda ruh yüksəkliyi yaratmağa çalışırıq. Bugünkü aksiyada 14 təşkilatdan 80 nəfər iştirak edir."

Tibb xidməti mayoru Elvin Rüstəmov bildirdi ki, 24 saat fəaliyyət göstərən Qan Bankı hospitalda müalicə alan xəstə və yaralıları lazımi qan və onun komponentləri ilə təmin etmək üçün yaradılıb. "Müasir tibbi avadanlıqlarla təmin olunmuş bölmədə qanın bütün komponentləri təlimata uyğun hazırlanır. Aksiyada öncə məlumat kartlarına donorlar haqqında lazımi məlumatlar qeyd olunur. Şikayətlərinin olub-olmaması ilə maraqlanılır. Hemoqlobinləri, qan təzyiqləri, ürək ritmləri yoxlanılır. Temperaturu, ritm pozğunluğu olanlar, müalicə alanlar, antibiotik qəbul edənlər qan verə bilməzlər. Verilən qanlar qruplara bölünür, yoxlanılır, qan və onun komponentləri ən müasir üsullarla test edilir. Əgər hər hansı bir problem - xəstəlik aşkar olunarsa, donorla əlaqə saxlanılır və bilgi verilir. Aidiyyəti qurumlara da məlumat verirk."



Həkimlərdən tibb xidməti polkovnik-leytenantı Vüsal Rüstəmzadə, ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Kazım Quliyev, tibb bacıları - baş çavuşlar Gülarə Məmmədova, Yeganə Ramazanova, Nigar Feyziyeva, çavuş Günay Əliyeva və digərləri nəcib və humanist xarakterli bu aksiyada vəzifələrinin öhdəsindən layiqincə gəldilər.

Donorlardan Sahib Əsədov, Firdovsi Xəlilov, Daşdəmir Əliyev, Gülsədə Quluqızı, Lətafət Əmirova, Vəfa Ramazanova, Dilarə Cəfərova, Səyyar Nəzərov və başqaları belə aksiyalara qoşulmalarından qürur duyduqlarını, verdikləri qanın Azərbaycan hərbçisinə nə qədər gərəkli olduğunu dərk etdiklərini bildirdilər. "Qanım hansı zabitin, əsgərin həyatda qalmasına kömək olarsa, özümə yaxşı vətəndaş deyə bilərəm. Bu, ən böyük xoşbəxtlikdir".

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Tarixə ehtiram tədbiri

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar silsilə tədbirlərin həyata keçirilməsi davam etməkdədir. Bu tədbirlərin hər biri istər tarixə sədaqət, istər milli-mənəvi dəyərlərin mühafizəsi, istərsə də gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasına qayğı kimi dəyərlidir. Belə tədbirlər hərbi hissələrdə də keçirilməkdədir. Hərbi anda sədaqətlə xidmət edən əsgərlər xalqımızın tarixini daha əhatəli öyrənirlər ki, bu da onların mənəvi-psixoloji hazırlığında olduqca əhəmiyyətlidir.



Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşları, dövlət qulluqçuları Zümrüd Səmədova və Sairə Rəsulova bu günlərdə ön xətdə yerləşən hərbi hissələrimizdən birində əsgərlərlə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı söhbət aparıblar. Tədbirdə bu tarixi günün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmasından, istiqlaliyyətimizin tarixindən, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə müstəsna rolundan, xalqın mübarizə əzmindən, o dövrün tarixi şəxsiyyətləri - Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Ələğa Şıxlinskinin və başqalarının böyük xidmətlərindən söz açılıb. Ehtiramla xatırladılıb ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev qurucusu olduğu müasir Azərbaycanı Azərbaycan Demokratik Cümhuriyyətinin, ordumuzu Cümhuriyyət ordusunun varisi elan edib.

Hərbi hissədəki görüş bir daha təsdiqlədi ki, ordu ilə xalqın birliyi sarsılmazdır. 2016-cı ilin aprel döyüşləri haqqında deyilənlər əsgərlərin döyüş əzmini, qələbə ruhunu kükrədib.

Dövlət qulluqçuları hərbi hissənin ərazisində keçirilən ağacəkmə aksiyasına qoşulublar. Bu kompaniya ümummilli lider Heydər Əliyevin tövsiyələrinin yaşarılığının təsdiqidir. Ağac əkmək - qurmaq, yaratmaq Azərbaycan əsgərinin vətəndaşlıq duyğularının daha da genişləndirilməsinə xidmət edən tədbir kimi dəyərləndirilməlidir.

Şəhidlər unudulmur. Tədbirin davamı kimi Zümrüd Səmədova və Sairə Rəsulova şəhidlər Orxan Həmidovun və Səyyar Quliyevin ailələrinə də baş çəkiblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla yenidən qurulan, əhalisi qayıdan Cocuq Mərcanlı kənd qəbiristanlığında şəhidlərin ruhuna ehtiram ziyarəti olub. Bu ziyarətin mahiyyəti Böyük Qələbəyə inam deməkdir. Xalq Azərbaycan əsgərinə güvənir, onun Böyük Qələbəsinə inanır.

Füzuli Dram Teatrının səyyar qrupu əsgərlər qarşısında maraqlı proqramla çıxış edib.

Bu tədbir "Cümhuriyyət İli - 100" tədbirlər silsiləsinin tərkib hissəsi kimi yaşanılıb.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# İstiqlalımız qürur yerimizdir

*Cümhuriyyət ilində Azərbaycanın dövlət müstəqilliyinin bərpasını böyük sevgilərlə xatırlanır: 1991-ci ilin sonlarında SSRİ-nin zəifləməsi bizə müstəqil olmaq üçün imkan yaratdı. Azərbaycan Ali Sovetinin növbəti sessiyasında dörd günlük müzakirələrdən sonra "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Nəhayət, biz 1991-ci ilin oktyabrın 18-də ikinci dəfə zəncirləri qıraraq müstəqilliyi daddıq.*

Hürriyyət! O elə qüvvədir ki, zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını sövq edir (Ə.Hüseynzadə). Azadlıq və xoşbəxtlik hər xalqın əzəli və əbədi istəyidir. Xalqımız min illərlə bu istəklə yaşayıb, bu istək naminə mübarizə aparıb. Azad fikir, azad düşüncə bir dövlətin yaşamı üçündü; xalq bu niyyətin icraçısı olmaqla dövlətçiliyini qoruyub. Bu baxımdan xalqımız dövlətçiliyimizin cəfakeşidir.

Azərbaycan dövlətinin ərazisi dünya xəritəsində kiçik olsa da, onun müstəqillik, azadlıq mübarizəsi olduqca böyükdür. Xalqın fədakarlıqla əldə etdiyi müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan çətindir. Azərbaycan xalqı azadlıq, müstəqillik yolunda odlu-alovlu yoldan keçərək öz məqsədinə nail oldu. Aldığımız heç bir zərbə, heç bir məğlubiyyət bizi bu yoldan döndərmədi.

Biz XX əsrdə müstəqilliyimizi iki dəfə qazanmışıq. İlk müstəqilliyimiz cəmi 23 ay yaşasa da, həmin aylarda əvəzsiz işlər görüldü.

Azərbaycan dövlətinin müstəqilliyi qəbul olunduqdan sonra isə bayraq, gerb və himn haqqında da qərarlar qəbul edildi. Bu həmin bayraqdır ki, neçə-neçə igid oğullarımız - Mübarizlərimiz, Çingizlərimiz, Samidlərimiz qorxmadan, çəkinmədən onun yolunda şəhid oldular. Bu həmin gerbdir ki, müstəqilliyimizi təmsil edir və bunun sübutudur. Bu həmin himndir ki, məkanından asılı olmayaraq səsləndiyi hər yerdə könlümüzü riqqətə gətirir, qeyri-ixtiyari ayağa qalxırıq, ürək çırpıntılarımız onun sədalarına qarışır.

Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Hər birimiz Ulu Öndərin bu kəlamını böyük sevgilərlə yaşadırıq. Mən də bir Azərbaycan vətəndaşı olaraq qürur duyuram.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun**
**II kurs tələbəsi**

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 832 Nüsxə 3525 |